# AZƏRBAYCAN KİNOSUNUN
# İLK SƏHİFƏLƏRİ

**XIX və XX əsrlərin ən böyük kəşflərindən olan, insan zəkasının ən müxtəlif sahələrini özündə birləşdirib sintetik bir sənət kimi təşəkkül tapmış kino – cəmiyyət, texnika, sənaye və iqtisadiyyatla əlaqəli şəkildə inkişaf etmiş, bugünkü böyük şəklə düşmüşdür**





İlk kinofabrikin binası
1923


İlk kinostudiyanın binası
1925


"İsmət", 1934,
rejissor M.Mikayılov


"Kəndlilər", 1939,
rejissor S.Mərdanov


"O olmasın, bu olsun", 1956,
rejissor H.Seyidzadə


"Kölgələr sürünür",
1939, rejissor S.Mərdanov

Sintez uzunmüddətli prosesdir. Başlığında "səssiz"lik dövrü yaşamalı olan kino, sonralar o səsin gəlişilə danışmış, illər keçdikcə ən mürəkkəb texniki və bədii imkanlara malik böyük ekran sənətinə çevrilmişdir.

Dünya kino sənətinin ayrılmaz bir hissəsi olan Azərbaycan kinematoqrafiyası bu il 117 yaşını qeyd edir ki, sovet dövründə bu tarix 2 dəfə dəyişdirilmişdir. Belə ki, keçmiş SSRİ-də bütün millətlər üçün bir kino tarixi mövcud idi: 27 avqust 1919-cu il. Həmin gün sovet hökumətinin başçısı V.İ.Lenin Rusiyada kinematoqrafiya və fotoqrafiya müəssisələrinin milliləşdirilməsi üçün dekret imzalamış və bu tarix uzun illər sovet kinosunun yaranması günü kimi geniş şəkildə bayram edilmişdir. Bakıda çəkilib 1916-cı il mayın 14-də ekranlara buraxılmış iki seriyalı "Neft və milyonlar səltənətində" bədii filminin 60 illiyi münasibətilə Azərbaycan KP MK-nın I katibi H.Əliyevin sərəncamı ilə həmin tarix kino işçilərinin peşə bayramı günü kimi qeyd edilməyə başladı.

748



**Kino bayramının qeyd olunduğu gün respublikanın rəhbəri H.Əliyev belə bir söz demişdi: "Əgər kino mütəxəssisləri tədqiqat işlərində bir qədər də dərinə getmiş olsalar, bəlkə də bizim kinomuzun tarixi daha böyükdür". Ulu öndərimiz H.Əliyevin bu tapşırığı yalnız Azərbaycan ikinci dəfə müstəqillik əldə edəndən sonra reallaşdı.**

Respublikamızda kinematoqrafçılar Azərbaycan kinosunun 80 illiyinə hazırlaşdıqları bir vaxtda bu sətirlərin müəllifi kütləvi informasiya vasitələrinə müsahibələrində bəyan etdi ki, Azərbaycan kinosunun yaşı 80 deyil, 98-dir! Bu, müəyyən dairələrdə, (o cümlədən bir qisim kino işçiləri arasında) çaşqınlıq yaratsa da, faktlar öz sözünü dedi.

Tədqiqatlar göstərir ki, ilk dəfə Fransada yaradılmış kino az bir vaxt ərzində dünyanın müxtəlif ölkələrinə, o cümlədən Azərbaycana da gəlib çıxmışdır. XIX əsrin sonlarında Bakıda nəinki filmlər göstərilmiş, hətta bu filmləri çəkən və göstərən aparatlar satışda olmuşdur. Məsələn, 1898-ci ilin martında Adolf Veysin keçirdiyi auksionda digər mallarla yanaşı, sinematoqraf da olmuşdur.

Maraqlıdır ki, dünya kinosu Fransada 1895-ci il dekabrın 28-də kinonun çəkilişi ilə deyil (çəkilişlər hələ həmin ilin martında aparılmışdır), kütləvi nümayişi ilə yaranmışdır. Bu, eynilə Rusiya kinosuna da aiddir; orada (1896-cı ilin mayında Fransanın "Qomon" firması filmlərinin nümayiş etdirilməsilə) kinonun 100 illik yubileyi 1996-cı ilin mayında keçirilmişdir. Azərbaycanda da ilk dəfə filmlər (xarici filmlər – A.K.) 1896-cı ilin II yarısından sonra göstərilmişdir. Amma Azərbaycanda kinonun yaranma tarixi fotoqraf-kinooperator A.M.Mişonun 1898-ci ildə Bakı həyatından çəkdiyi filmlərin avqustun 2-də nümayişilə başlamışdır.

Kinooperator, fotoqraf, naşir, jurnalist, Paris Milli Akademiyasının üzvü (fotoqrafiya sahəsi üzrə) A.M.Mişon heç də fransız deyil, ukraynalıdır. O, 1858-ci ildə anadan olmuş, çox gənc yaşlarından, (1879) ailəsilə Xarkov quberniyası İzyum qəzasının Slavyansk şəhərindən Bakıya köçmüşdür.

Aleksandr Mixayloviç əvvəlcə realnı məktəbdə ilk dəfə "proyeksiya fonarı"nın köməkliyilə mühazirələr oxumuş, fotoqrafiya üzrə təcrübələr aparmış, Bakının Mixaylov küçəsində (indiki Əziz Əliyev) açdığı şəxsi fotoatelyedən, sonralar kiçik kinolaboratoriya kimi də istifadə etmişdir. 1891-ci ildə "Bakı foto həvəskarları dərnəyi"ni təsis edib, əvvəlcə katibi, 1897-ci ildə sədri seçilmişdi. A.M.Mişonun rəhbərliyi altında "Bakı şəhərinin illik məcmuəsi" nəşr edilmiş, o, bir neçə diapozitiv, o cümlədən "Unudulmaz padşah, imperator III Aleksandrın həyatının son günləri"ni hazırlamışdır. 1893-cü ilin sonunda nəşriyyatın nəzdində oxu zalını açmışdır.

Elmi-təcrübi bilikləri qızğın təbliğatçısı olan A.Mixayloviç 1879-cu ildən başlayaraq, təxminən, 1905-ci ilə qədər Bakı mənzərələrinin, neftin çıxarılması və emalının, mədənlərdə baş verən dəhşətli yanğınların fotoşəkillərini çəkmişdir. Azərbaycan Dövlət Arxivində saxlanılan fotoşəkillərinin neqativləri təsdiq edir ki, hər şeylə maraqlanan bu adam ağır ştativli qutular, foto və kino aparatları çiynində bütün mühüm fakt və olayları çəkmiş, tarix üçün unikal kinoizlər yadigar qoyub getmişdir.

Dünya kinosu yaranandan sonra, yuxarıda qeyd etdiyimiz kimi, Lümyer qardaşlarının sinematoqrafı 1896-cı ilin II yarısında Bakıya gətirilmiş, müxtəlif vaxtlarda, o cümlədən 1898-ci il yanvarın 8-də milyonçu Z.A.Tağıyevə məxsus evdə, "Bakinskoe Obşestvennoe Sobranie" zalında ehtiyacı olan şagirdlərə "Yardım Cəmiyyəti"nin xeyrinə keçirilən gecədə "canlandırılmış fotoşəkillər" nümayiş etdirilmişdir. Həmin axşam sehrli fənərlər və gözəl şəkilləri olan stereoskoplar da satılmışdır.

Bir il sonra noyabrın 27-də "Kaspi" qəzetində "Yeni kəşflərin tətbiqi" məqaləsində kinematoqrafın böyük gələcəyindən xəbər verən H.B.Zərdabi yazacaqdı: "...Çimən adamların kinematoqrafda təsviri yəqin hamıya məlumdur. Hal-hazırda bizim əlimizdə oyuncaq cihaz-kinematoqraf var: bu cihaz insan həyatını və heyvanların ən mürəkkəb həyat təzahürlərini tam təkmilləşdirilmiş və həqiqətə uyğun şəkildə hərəkətdə göstərir... Bu cihaz bu yaxınlara kimi ibtidai vəziyyətdə idi və stereoskop adını almış oyuncağa oxşayırdı. Elə indi də bir çox optik mağazalarda onu tapmaq olar..."

"Kaspi" qəzetinin 1898-ci il 17 iyun tarixli nömrəsində dərc edilmiş informasiyada xəbər verilir ki, "Bakı foto dərnəyi" xeyriyyəçilik məqsədilə mayın 31-də Mixaylov bağında (indiki Filarmoniya bağı) xalq gəzintisi təşkil etmiş, yığılan pulların yarısı məhsul qıtlığından zərər çəkənlərə, qalanı isə dərnəyin inkişafına sərf olunmuşdur.

Burada bir cəhətə diqqət yetirmək lazımdır ki, dərnəyin inkişafına sərf olunan pulun 20 manatı xalq gəzintisi zamanı bağda qurulmuş sinematoqrafın işləməsi üçün lazım olan elektrik xəttlərinin alınmasına xərclənmişdir. Xeyriyyəçilik məqsədilə təşkil olunmuş xalq gəzintisi zamanı bakılılara filmlər göstərilmişdir.

Bu tədbir "Şəhər bağında xalq gəzintisi" adı altında lentə alınmış (deməli, mayın 31-də Bakıda ilk kino çəkilişləri aparılmışdır), Bakı həyatından bəhs edən "Qatarın dəmiryol vağzalına daxil olması", "Qafqaz və Merkuri" Cəmiyyətinə məxsus paroxodun limandan yola düşməsi" və "Bazar küçəsi sübh çağı" adlı daha üç kinosüjetlə birgə 1898-ci il iyunun 21-də Vasil-Vyatskinin teatr-sirkində nümayiş etdirilmişdir.

Sonuncu filmdə Bakının "Bazarnıy" deyilən küçəsində (indiki Azərbaycan prospekti) səhər erkən dükanların açılmasından, bura araba, ulaq və dəvə ilə ərzaq və sənaye mallarının gətirilməsindən, sübh tezdən başlanan qızğın alış-verişindən bəhs olunur.

**Filmlərin çəkilişi və nümayişi nəinki Azərbaycan, həm də dünya kino tarixində tamamilə yeni bir hadisə olduğu üçün, fotoqraf A.M.Mişon (ilk illərdə kinooperatorlara da fotoqraf deyirdilər) risq etməməyi qərara almış və bu kino baxışına daha çox tamaşaçı cəlb etmək məqsədilə öz sinematoqrafını o vaxt Bakıda qastrolda olan gözbağlayıcı artist, professor İoqan Ştrausla birgə seansda göstərmişdir.**

Tamaşaçıların ilk dəfə ekranda şəhər bağında bakılıların necə istirahət etməsini, qatarın tüstülədə-tüstülədə Bakı dəmiryol vağzalı-

na daxil olmasını, paroxodun ağ köpüklü dalğaları yararaq limandan ağır-ağır necə uzaqlaşdığını, şəhər yuxudan oyanmamış qaynar Bazar küçəsində adamların qızğın alver etməsini öz gözləri ilə görüb heyrətləndiklərini təsəvvür etmək o qədər də çətin deyil. Bu gün bizimçün adi görünən bu mənzərələr o vaxtlar ağlasığmaz sensasiya adlandırılırdı...

A.M.Mişon bütün bunlardan əlavə, 1898-ci ilin mayında kişi gimnaziyası koloniyasında çıxışların bir neçə anını da lentə almış ("Kaspi" qəzeti, 6 iyun 1898-ci il) və yayda nümayiş etdirilmiş kinoxronikadan əldə olunan vəsaitin bir hissəsi koloniyanın xeyrinə sərf olunmuşdur.

"Kaspi" qəzetində (10 oktyabr 1898) dərc olunmuş bir elanda filmlərin nümayişi üçün istifadə olunan Lümyer qardaşlarının kinematoqrafı haqqında da məlumat verilir. Deyilir ki, fotoqraf A.M.Mişonun göstərdiyi kinematoqraf Rusiyada yegana aparatdır. Bu aparat hərəkət edən şəkillər çəkir və təsvirləri səhnədə 5 sajın böyüklüyündə canlandırır (1 sajın 3 arşına və ya 2,134 metrə bərabər uzunluq ölçüsüdür – A.K.).

"Kaspi"nin həmin il iyulun 25-də dərc etdiyi "Buxara əmirinin gəlməsi" adlı informasiyasında xəbər verilir ki, iyulun 24-də əlahəzrət Buxara əmiri Seyid Mir Əbdül xan sürət qatarı ilə Bakıya gəlmiş, vağzalda onu orkestr və şəhərin adlı-sanlı adamları qarşılamışlar. Əlahəzrət karetada kazaklardan ibarət mühafizə dəstəsinin əhatəsində Z.A.Tağıyevin mənzilinə getmişdir.

Üç gün sonra (28 iyul) həmin qəzetdə çap olunmuş daha iki informasiya da kinematoqrafla bağlıdır. "Buxara əmirinin yola düşməsi" informasiyasında deyilir: "İyulun 27-də əmir "Velikiy knyaz Aleksey" paroxodunda Krasnovodska yola düşmüşdür. Paroxod yola düşməzdən əvvəl "Qafqaz və Merkuri" limanına xeyli adam toplaşmışdı. Əlahəzrəti çoxlu rəis yola salırdı. Limanda daim orkestr çalırdı".

"Möhtəşəm yanğın" adlanan ikinci informasiyada isə oxuyuruq: "İyulun 27-ə keçən gecə, 11 radələrində Bibiheybətdə Bakı taciri Y.V.Vişaunun mədənində çox böyük qızartı göründü. Fontan vuran 32 saylı buruğun yaxınlığında yerləşən ocaqxanada yanğın baş vermişdi: alov fontanı bürüdü, tezliklə qonşu buruqlar od tutdu, sonra alov mədənin yarısına yayıldı, milyon pud nefti olan böyük anbar yandı".

Hər iki hadisəni operativ şəkildə lentə alan A.M.Mişon "Bibiheybətdə neft fontanı yanğını" və "Əlahəzrət Buxara əmirinin "Velikiy knyaz Aleksey" paroxodunda yolasalma mərasimi" adlı xronikal-sənədli filmlərini yaratmışdır.

A.M.Mişonun iyunun 21-də təşkil etdiyi birinci kütləvi kino baxışı eksperiment xarakteri daşıyırdı. Bu kinobaxışın uğurundan həvəslənən müəllif ikinci kino proqramını ayrıca – heç bir yardımçı proqram olmadan nümayiş etdirmişdir. 1898-ci il avqustun 2-də göstərilmiş bu proqramla əlaqədar "Kaspi" qəzetinin 1 və 2 avqust tarixli nömrələrində bir elan dərc olunmuşdur: "1898-ci il avqustun 2-də V.İ.Vasilyev-Vyatskinin teatr-sirkində Parisdə qarşıdakı Ümumdünya sərgisi üçün Orta Asiya və Qafqazın "canlandırılmış fotoşəkillər" kolleksiyasını çəkən fotoqraf A.M.Mişon mühəndis İ.Karpentiyerin (adı Jüldür, – elanda səhv getmişdir. O, məşhur Kuba yazıçısı, Nobel mükafatı laureatı A.Karpentiyerin atasıdır – A.K.) düzəltdiyi Lümyer qardaşlarının təkmilləşdirilmiş "Kinematoqrafını" yalnız bir dəfə nümayiş etdirəcək.


Bibiheybətdə neft fontanı yanğını

Digər şəkillərlə bərabər göstəriləcəkdir:

1. Bibiheybətdə neft fontanı yanğını.
2. "Əlahəzrət Buxara əmirinin "Velikiy knyaz Aleksey" paroxodunda yolasalma mərasimi"
3. "Qafqaz rəqsi"
4. "İlişdin!" Bakı şəhərinin bağçalarından birində baş vermiş yumoristik əhvalat.

Ətraflı məlumat afişalardadır. Saat 21:00-da başlanır.

Bu sənətkar öz kinoproqramını həmin il avqustun 6-da Balaxanıda Benkendorfun neft fəhlə klubunda da nümayiş etdirmişdir. Tamaşaçıları baxışa cəlb etmək üçün o, əvvəl çəkdiyi dörd süjetdən birincisini Balaxanı kəndinin həyatına həsr olunan materiallara daxil etmişdir:

1. 1898-ci il iyulun 27-də Bibiheybətdə neft fontanı yanğını (təkrar).
2. 1898-ci il avqustun 4-də Balaxanıda neft fontanı.
3. Balaxanı – Sabunçu polis idarəsi süvari qarodovoylarının at oynatmaları.

Azərbaycanın tanınmış yazıçı və şairi Abbas Səhhətin 1950-ci ildə çapdan çıxmış "Seçilmiş əsərləri"ndəki "Neft fontanı" pyesində əsərin qəhrəmanı, avropasayağı geyinmiş rəis Bəybalanın monoloqu verilmişdir:

"Parisin vıstavkasında bizim bu dağılmış Balaxanı elə yaxşı görünür ki, daha nə deyəsən! O vaxt da ürəyimdə tutdum ki, haçan Bakıya getsəm, hər növ ilə olsa Balaxanıda özümə bir qulluq tapım. Elə də oldu, iş də rast gətirdi, qulluq da tapdım; indi bu Balaxanıda – qara neftin, palçığın, tüstünün, hisin, pasın içində adam necə yaşasın?"

Pyesdə Parisdəki sərgidə Bakının Balaxanı kəndinin gözəl görünməsi haqqında danışılır, "Kaspi" qəzetindəki elanda isə A.M.Mişonun Ümumdünya Paris sərgisi üçün Azərbaycanda "canlandırılmış fotoşəkillər" kolleksiyasını çəkdiyi barədə məlumat verilir. Deməli, Parisdəki Ümumdünya sərgisində Bakının həm neft mədənləri, həm də şəhərimizin həyatı ilə bağlı fotoşəkillərdən ibarət sərgi fəaliyyət göstərmiş, eyni zamanda A.M.Mişonun çəkdiyi kinosüjetlər nümayiş etdirilmişdir...

Yazılar müxtəlif zamanlarda qələmə alınsa da, faktlar eynidir. Bunlar bir daha təsdiqləyir ki, Azərbaycanda ilk kinosüjetlər 1898-ci ildə dünya kinosundan 3, Rusiya kinosundan 2 il sonra çəkilib və həmin il avqustun 3-də Bakıda, 1900-cü ildə isə Parisdə göstərilib.

Azərbaycan kinosunun ağsaqqalı, görkəmli kinorejissor Muxtar Dadaşov bu elanla tanış olandan sonra "Qafqaz rəqsi" kinosüjetindən sənədli filmlərin birində istifadə olunduğunu bildirdi. Dedi ki, həmin süjet səssiz idi, həm də 16 kadrda çəkilmişdi (o dövrdə filmlər 16 kadrda çəkilirdi – A.K.). Sənədli filmə uyğun gəlsin deyə, süjet 22 kadra çatdırılıb istifadə edilmişdir.

A.Mixayloviçin geniş və çoxşaxəli yaradıcılığının Bakı fəaliyyəti bununla başa çatmır. Onun redaktoru olduğu "Qafqaz və Orta Asiya fotoqrafiya və təsvirlərdə" jurnalının ilk nömrəsi 1899-cu ilin noyabrında işıq üzü görmüş, 1907-ci ildə son nömrəsi çapdan çıxmışdır. 1908-ci ildə isə "Biləsuvar" adlı ədəbi-bədii almanax çap etmişdir.

1908-ci ilin ikinci yarısında Slavyansk şəhərinə köçən A.M.Mişon "Severo-Donetskiy kray" qəzetini nəşr etməyə başlayır. 1913-cü ildə Xarkova gəlir və orada fotoatelye və sinkoqrafiya sexi açır. 1918-ci ildə Voronej şəhərinə köçür və deyildiyinə görə, ömrünün son illərində inqilabi tribunalın sədri vəzifəsində çalışır, 1921-ci il iyulun 5-də 63 yaşında vəfat edir.

**...Sovet dövründə kino sənətilə bağlı kitablarda, elmi əsərlərdə, inqilabdan əvvəlki kinonun tarixi əhəmiyyətinə varmadan "ucuz yarmarka attraksionu" adlandırır, "kapitalistlərin gəlir mənbəyi" kimi xarakterizə edir, "xronikal lentlər gəlmə operatorlar tərəfindən çəkildiyi üçün təsadüfi xarakter daşıdığı", "xarici firmaların qastrola çıxan nümayəndələri" tərəfindən çəkildiyi göstərilir, "çəkilişlərin primitiv səviyyədə aparılması" barədə hökmlər verilirdi.**

Sənətşünasların belə mövqeyi təsadüfi deyildi; axı, Azərbaycan kinosunun tarixi sovet ideologiyasının tələbləri baxımından yazılır, sovetlər ölkəsinin "bərabər hüquqlu" respublikalarından biri olan Azərbaycan SSR-in kinosuna çoxmillətli sovet kinematoqrafiyasının "ayrılmaz tərkib hissəsi" prizmasından baxılırdı...

Əgər irəli sürülən fikirlərə, verilən hökmlərə obyektiv yanaşsaq, tamamilə başqa bir mənzərənin şahidi olarıq. Yuxarıda qeyd olunduğu kimi, fotoqraf A.M.Mişon Bakıya işləməyə gələndə və burada öz fotoatelyesini açanda (1895-ci il) nə dünya kinosu yaranmışdı, nə "Qomon" (1896-cı il), nə də "Pate qardaşları" firmaları fəaliyyətə başlamışdı. Buna görə də onu "qastrola çıxmış xalturaçı" adlandırmaq, ən azı, sadəlövhlük olardı. Biz əlimizdə olan faktlara istinadən şəhərimizdə uzun illər yaşamış və fəal çalışmış Aleksandr Mixayloviçi bakılı hesab edir və qətiyyətlə deyə bilərik ki, o, bura fenomenal bilik və təcrübəsini yaşadığı cəmiyyətin vətəndaşlarına öyrətmək, xeyriyyəçilik (!) işlərilə məşğul olmaq, eyni zamanda, öz yaradıcılıq fəaliyyətinin dairəsini daha da genişləndirmək məqsədilə gəlmişdi.

Düzdür, Lümyer qardaşları hələ 1896-cı ildə sinematoqraflarına marağın günü-gündən artdığını görüb çoxlu qazanc götürmək məqsədilə kinooperatorlarını dünyanın müxtəlif şəhərlərinə göndərmişdilər. Adları tarixə düşmüş Promio, Mesqiş, Fransisk Dubliye və başqaları Lümyer qardaşlarının firması üçün çoxlu filmlər çəkirdilər. Hətta onların təşəbbüsü ilə 1896-cı ildə Almaniya, Avstriya, İspaniya, Rumıniya, Hindistan, Avstraliya və ABŞ-da ilk kinoseanslar keçirilmişdi. Həmin ilin yazında Lümyer qardaşlarının nümayəndəsi Kamill Serf Rusiyaya gəlmiş, may ayında Sankt-Peterburqda və Moskvada fransız filmlərini və rus həyatından çəkdiyi xronikal lentləri nümayiş etdirmişdir. A.M.Mişonun isə nə Lümyer qardaşlarına, nə də "Qomon" və "Pate" firmalarına tabeçiliyi vardı o, müstəqil fəaliyyət göstərir, bəzən də hər hansı bir firmanın sifarişlərini yerinə yetirirdi.

1900-cü ilin aprelində Beynəlxalq əmək, tərəqqi və sivilizasiya bayramı kimi qeyd olunan Ümumdünya sərgisində 35 dövlət, o cümlədən Rusiya imperiyası iştirak edirdi. Milli pavilyonların fəaliyyət göstərdiyi, elektrik, kinematoqraf və avtomobillərin nümayiş etdirildiyi bu illüziya pavilyonunda bakılı fotoqraf-operator A.M.Mişonun filmləri də göstərilmişdir. Sərgi başa çatandan sonra Lümyer qardaşları Aleksandr Mixayloviçin bir neçə xronikal lentini alıb öz proqramlarına daxil etmişdilər.

**...1993-cü ildə ümummilli lider Heydər Əliyevin sərəncamı ilə Azərbaycan Dövlət Film Fondu yaradıldı. Bir neçə ildən sonra Film Fond Beynəlxalq Kino Arxivləri Federasiyasının üzvü oldu. Federasiyanın nizamnaməsinə əsasən, Dövlət Film Fondu A.M.Mişonun 1898-ci ildə çəkdiyi "Bibiheybətdə neft fontanı yanğını" və "Balaxanıda neft fontanı" xronikal kinokadrlarının surətlərini ala bildi və indi onlar Azərbaycan Dövlət Film Fondunda qorunub saxlanılır. Bu kinosüjetlər dünya kino sənəti salnaməsinin qızıl fonduna daxil edilmişdir.**

**1998-ci ilin may ayında Bakıda keçirilmiş və Azərbaycan kinosunun 100 illiyinə həsr olunmuş beynəlxalq "Festivallar festivalı" günlərində Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev kinomuzun tarixi ilə bağlı fikirlərini qonaqlarla bölüşərkən demişdir: *"Bu gün biz bir kəşf etdik, bu, həm Rüstəm İbrahimbəyov üçündür, həm də onun həmkarları üçün, göstərdik ki, Azərbaycan kinosu 1898-ci ildən başlanır, onun yüz ili tamam olur... Sizin bunu bilməməyiniz pisdir. Elə biz də 1916-cı ili başlanğıc ili hesab edirdik... Lakin Azərbaycan kinosunun stajını, əgər belə demək olarsa, on il, yaxud neçə il artırmaq ümumən heç də sadə bir məsələ deyildir... Bugünkü festival hiss etdiyimiz bütün xoş, yaxşı hallarla yanaşı, məsələn, mənim üçün məhz bu kəşflə dəyərə malikdir – onun həm sübutu ilə, həm də nümayiş etdirilməsi ilə".***



1. "Arşın mal alan"
2. "Bizim Cəbiş müəllim"
3. "Dədə Qorqud"



4. "Uzaq sahillərdə"
5. "Bir cənub şəhərində"
6. "Ad günü"

"Ötən 117 ildə Azərbaycan kinosu şərəfli bir yol keçmişdir. Onun yaxşı günləri də çox olub, çətin
günləri də. Ümumiyyətlə, milli kinomuz müxtəlif dövrlərdə dövrün özünə uyğunlaşdırılmış və dəyi-
şikliklərə məruz qalmışdır. Bu illər ərzində Azərbaycan kinosu həqiqətən böyük yol keçmiş, 2000-ə
yaxın müxtəlif növ və janrda filmlər çəkilmişdir. Azərbaycanda istehsal olunmuş "Kəndlilər", "Ar-
şın mal alan", "O olmasın, bu olsun", "Uzaq sahillərdə", "Bir cənub şəhərində", "Ad günü", "Axırıncı
aşırım", "Dəli Kür", "Şərikli çörək", "Dədə Qorqud", "Yaramaz", "Bizim Cəbiş müəllim", "Ovsunçu",
"Qala", "Günaydın, mələyim", "Hökmdarın taleyi", "40-cı qapı", "Nabat", "Buta", "Çölçü", "Qisas
almadan ölmə", "Mahmud və Məryəm" və s. filmlər kino sənətimizə uğur qazandırmışdır.



Azərbaycan kinosu təkcə müxtəlif dövrlərdə istehsal olunmuş filmlərdən ibarət deyil, həm də bu filmləri çəkən, kinomuzun tarixini yaradan, onu inkişaf etdirən sənətkarlar deməkdir. Milli kinomuzun yaranmasında və inkişafında C.Cabbarlı, A.M.Şərifzadə, M.Mikayılov, H.Seyidzadə, H.Seyidbəyli, İ.Qasımov, Ə.İbrahimov, O.Mir-Qasım, E.Quliyev, M.İbrahimbəyov, İ.Hüseynov, Anar, Elçin, Ə.Ələkbərov, Ş.Məmmədova, K.Məmmədov, E.Rzaquliyev, L.Bədirbəyli, H.Məmmədov, Ş.Ələkbərov, F.Manafov, R.Balayev, H.Ömərova, A.Mir-Qasım, N.Bədəlov, M.Bağırov, X.Muradov, E.Axundov, A.Axundov, N.Məmmədov və başqa kino sənətkarları əhəmiyyətli rol oynamışlar.

Ümummilli lider H.Əliyevin 1998-ci il iyulun 3-də imzaladığı sərəncamla təsdiq etdiyi "Kinematoqrafiya haqqında" Azərbaycan Respublikasının Qanunu incəsənətin mühüm növü olan kinematoqrafiyanın qorunması və inkişafı sahəsində dövlət siyasətinin həyata keçirilməsinə hüquqi təminat verir, kino fəaliyyəti ilə məşğul olan fiziki və hüquqi şəxslərin hüquq və vəzifələrini, kinematoqrafiyaya dövlət himayəsinin formalarını müəyyənləşdirir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Azərbaycanda kino sənətinin inkişaf etdirilməsi haqqında" (23 fevral 2007) və "Azərbaycan kinosunun 2008-2018-ci illər üzrə inkişafına dair Dövlət Proqramı" (4 avqust 2008) sərəncamlarında milli kinematoqrafiyamızın hərtərəfli və kompleks şəkildə inkişafında mühüm rol oynayacaq bir sıra vacib tədbirlərin həyata keçirilməsi, "Azərbaycanfilm" kinostudiyasının maddi-texniki bazasının müasir tələblərə uyğun texnoloji avadanlıqla təchizi əsaslı şəkildə yenidən qurulması, Dövlət Film Fondunun yeni binasının inşası, dünyanın aparıcı kino şirkətlərilə müştərək filmlərin istehsalı və s. nəzərdə tutulmuş, bunların bir hissəsi artıq reallaşmışdır.

Dövlət Proqramında kino istehsalına ayrılan vəsaitin həcmi də ildən-ilə artır. Məsələn, 2003-cü ildə bu vəsaitin həcmi 600 min manat təşkil edirdisə, 2007-ci ildə bu rəqəm 4 mln 400 min, 2014-cü ildə isə 6 mln 500 min manat olmuşdur.

Çəkilən bir çox bədii və sənədli filmlər müxtəlif beynəlxalq kinofestivallarda iştirak etmiş və mükafatlara layiq yer tutmuşdur.

Kinematoqrafçılarımız bu gün müstəqil Azərbaycan kinosunun inkişafı naminə, onun dünya kino sənəti sistemində layiqli yer tutması üçün daha böyük əzmlə və həvəslə çalışırlar. ❖

Aydın Kazımzadə,
kinoşünas

